UOT 376.

***Minarə Əjdər qızı Məmmədova***
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti*

# AZƏRBAYCANDA İNKLÜZİV TƏHSİLİN HƏYATA KEÇİRİLMƏSİNİN OPTİMAL YOLLARI

***Минара Аждар гызы Мамедова***
*доктор философии по педагогике, доцент Азербайджанского Государственного Педагогического Университета*

# ОПТИМАЛЬНЫЕ ПУТИ ОСУЩЕСТВЛЕНИЯ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ

***Minara Ayjar Mamedova***
*PhD in pedagogy,associate professor of Azerbaijan State Pedagogical University*

# OPTİMAL WAYS OF İMPLEMENTİNG İNCLUSİVE EDUCATİON İN AZERBAİJAN

**Xülasə:** Məqalədə müasir dövrün ən aktual problemi olan imkanları məhdud insanların sosial mühitə inteqrasiya edilməsində Qərbi Avropa və Şimali Amerika dövlətlərinin təcrübəsinə istinad edilmişdir. Xarici mütəxəssislər hesablamışlar ki, imkanları məhdud uşaqların erkən və məktəbəqədər yaş dövr təhsilinə qoyulacaq sərmayə iqtisadi cəhətdən dövlət üçün daha çox sərfəli ola bilər. Qərbi Avropa və Şimali Amerika dövlətləri elmə müraciət edərək, uşağın psixi inkişaf qanunauyğunluq prinsipləri əsasında inklüziv təhsili hər bir ölkədə həyata keçirmişlər. Məqalədə uşağın psixi inkişaf qanunauyğunluğu ardıcıl olaraq təhlil edilmişdir.

***Açar sözlər:*** *psixi funksiyalar, təfəkkür, bacarıq, inkişaf*

**Резюме:** В статье ссылаются на опыт стран Западной Европы и Северной Америки в вопросах интеграции в социальную среду людей с ограниченными возможностями, что является самой актуальной проблемой современности. Зарубежные специалисты подсчитали, что инвестиции, вложенные в обучение детей с ограниченными возможностями раннего и дошкольного возраста будут экономически более выгодными для государства. Страны Западной Европы и Северной Америки с помощью науки претворили в жизнь инклюзивное образование в каждой стране на основе закономерностей психического развития ребенка. В статье закономерности психического развития были проанализированы в соответствующей последовательности.

***Ключевые слова:*** *психические функции, мышление, способность, развитие*

**Summary:** The article refers to the experience of Western European and North American countries in the integration of disabled people into the social environment, which is the most pressing problem of our time. Foreign experts assume, that investments in the education of early and preschool age children with disabilities will be economically viable for the state. The countries of Western Europe and North America introduced inclusive education based on the laws of the child's mental development. The patterns of mental development were analyzed in the appropriate sequence in the article.

***Key words:*** *mentalfunctions, mentality, ability , development.*

**Problemin aktuallığı.** İndiki dövrün ən aktual problemlərindən biri normal sosiumda öz yerini tapmaq istəyən və yetişməkdə olan gənc nəslin mənəvi, psixi və fiziki sağlamlığıdır. Vaxtında aparılan psixokorreksiya tədbirləri nəticəsində imkanları məhdud insanların sosial mühitə inteqrasiya edilməsi humanist prinsiplərdən sayıla bilər.

Keçmiş postsovet məkanında normal və imkanları məhdud insanların arasında prinsipial

olaraq bir maneə var idi. Eyni zamanda Qərbi Avropa və Amerika dövlətlərində imkanları məhdud insanlara münasibət artıq dəyişmişdir. Xüsusi təhsil və əmək bacarıqları məhdud insanların həyatına dövlət səviyyəsində fərqli münasibət yaranmışdı.

Qərbi Avropa və Amerika dövlətlərində xüsusi təhsilin iqtisadi inkişaf tarixi göstərdi ki, xüsusi təhsil ümumtəhsil sistemi ilə müqayisədə daha çox vəsait tələb edən sahə sayılır və bu sahəyə vəsaitin çox xərclənməsinə baxmayaraq onun iqtisadi effekti ümumtəhsil sistemi ilə müqayisədə həmişə aşağı olub. Məlumdur ki, xüsusi təhsil sisteminin maddi səviyyəsi ölkənin hazırki maddi vəziyyəti ilə təyin olunur. İmkanları məhdud insanların xüsusi təhsilinə və əmək bacarıqlarına dövlət səviyyəsində fərqli münasibət yaranmışdı (6).

Xüsusilə böhran dövrlərində ölkədə iqtisadi vəziyyətin stabilliyini bir az da aşağı salır. Bu səbəbdən Qərbi Avropa və Amerika dövlətləri xüsusi təhsil sistemində maliyyənin təşkilini daha səmərəli etmək üçün təhsilin bu növünə elmi əsaslanmış şəkildə yanaşmağı nəzərə aldılar.

Xarici mütəxəssislərin fikrincə, imkanları məhdud uşaqların erkən və məktəbəqədər yaş dövr təhsilinə qoyulacaq sərmayə İQTİSADİ CƏHƏTDƏN dövlət üçün daha çox sərfəli ola bilər. Belə ki, erkən və məktəbəqədər yaş dövrlərində uşağa göstərilən kömək bir çox uşaqların ümumtəhsil sisteminə keçməsinə imkan yarada bilər və xüsusi təhsil müəssisələrinə ehtiyacı daha az duyular. Problemi bu aspektdən işıqlandırmaqla bir çox dövlətlərdə xüsusi təhsil ocaqları ixtisara salınmışdı. Xarici mütəxəssislər hesablamışlar ki, imkanları məhdud şəxslərin ixtisas üzrə yüksək keyfiyyətli professional peşə təhsili ilə təmin edilməsi (əmək birjasında onlara yüksək tələbatı yaratmaq şərti ilə), onların ömür boyu əlil təqaüdü ilə təmin edilməsindən çox-çox sərfəlidir. Bu ölkələrdə imkanları məhdud insanların təhsilinə dövlət tərəfindən qoyulacaq sərmayə onların psixi inkişaf prinsiplərini nəzərə almaq şərti ilə hesablanırdı. Yəni, Qərbi Avropa və Amerika dövlətləri elmə müraciət edərək, uşağın psixi inkişaf qanunauyğunluq prinsipləri əsasında inklüziv təhsili hər bir ölkədə həyata keçirmişlər (6; 8).

Psixi inkişaf qanunauyğunluq prinsiplərinə, ilk növbədə, psixikanın mərhələlərinin müəyyən ardıcıllığı, psixi funksiyaların inkişafına senzitiv dövrlərin təsiri, bütün psixi proseslərin inkişafında ardıcıllığa riayət olunma, psixikanın inkişafında fəaliyyətin rolu, ali psixi funksiyaların formalaşmasında nitqin rolu, psixikanın inkişafında təlimin aparıcı rolu aiddir (1;3).

Uşağın psixi inkişaf prosesi özünəməxsus xarakterik xüsusiyyətə malikdir. Yəni, inkişaf prosesi zamanı hər bir yaş mərhələsində şəxsiyyət strukturunda miqdar dəyişikliyindən əlavə, yeni xüsusiyyət və keyfiyyət dəyişikliyi yaranır. Belə dəyişikliklər uşaq inkişafının əsas əlaməti sayıla bilər. İnkişaf prosesində psixi proseslərlə yanaşı onların arasında olan mürəkkəb qarşılıqlı əlaqə və münasibətlərdə formalaşır ki, bu da şüur strukturunu inkişaf ilə təmin və şüurun səviyyəsi hər bir psixi prosesin gələcək inkişafını təyin edir. Normal hal zamanı uşağın psixi inkişaf prosesi özünəməxsus qanunauyğunluq ilə xarakterizə edilir. L.S. Vıqotski qeyd etmişdir ki, qüsur strukturundan asılı olmayaraq imkanları məhdud uşaqlarda psixi inkişaf qanunauyğunluğu normal uşaqların inkişaf qanunauyğunluğu ilə eynilik təşkil edir. Amma imkanları məhdud uşaqların psixi inkişafında zaman məfhumu üstünlük təşkil edir. Yəni, imkanları məhdud uşaqların psixi inkişafı normal uşaqlardan fərqli olaraq zaman etibarı ilə gec müddətdə həyata keçir. Bu səbəbdən onların psixi inkişafını normal uşaqlardan fərqli olaraq daha gec zamanlarda müşahidə etmək mümkündür (2; 4).

İnsanın psixi inkişafı üçün ayrı-ayrı psixi funksiyaların müxtəlif zamanda və qeyri-bərabər formalaşması xarakterik bir haldır. Buna elmdə heteroxroniya qanunu deyilir. L.S. Vıqotski qeyd edirdi ki, hər bir psixi funksiya formalaşma prosesində özünün optimal inkişaf mərhələsinə malik olur. Bu da həmin funksiyanın şüurda dominant vəziyyət ilə üst-üstə düşdüyü vaxta təsadüf edir.

Yeni doğulmuş uşağın differensasiya olunmamış şüurunda ilk öncə qavrayış funksiyası dominant vəziyyətini almış olur. Bu yaş dövründə qavrayış funksiyası elementar affektiv reaksiyalarla birgə çıxış etməsinə baxmayaraq onun dominant vəziyyəti çağalıq dövrünün inkişafını təmin etmiş olur. Qavrayış funksiyası uşaq həyatının digər mərhələlərində də inkişaf

edir, amma şüurda dominant vəziyyətində onun daha intensiv inkişafı məhz çağalıq yaş dövründə müşahidə olunur.

Belə vəziyyət ən mürəkkəb psixi proses olan nitqə də aiddir. Nitq uşağın inkişafında mərkəz mövqelərdə qərarlaşır. Nitqin intensiv inkişafının həlledici mərhələsi həyatın 1, 5-5 yaşlarına təsadüf edir. Müəyyən mənada nitq uşaq həyatının 1,5 qədər və 5 dövründən sonrakı dövrlərdə də inkişaf edir. Amma 1,5-5 yaş dövrlərində nitq həyatın digər mərhələlərində olmayan inkişaf intensivliyinə malik olur (3; 1).

Məktəbəqədər yaşda psixikanın inkişafında dominant vəziyyətdə olan hafizə prosesini də qeyd etmək istərdik. Hafizə məktəbəqədər yaşdan əvvəl və sonrada inkişaf edir. Amma inkişafın maksimal sürətini məhz bu dövrdə qazanmış olur. Artıq formalaşmış qavrayışın, nitqin və təfəkkürün təsiri altında hafizənin inkişafı üçün əlverişli şərait yaranmış olur. Belə bir vəziyyətdə hafizə dominanatlığından istifadə edərək yuxarıda qeyd olunan proseslərin inkişafı üçün də şərait yaratmış olur (7; 8).

Məktəb dövründə artıq şüurda dominant vəziyyətini məntiqi təfəkkür almış olur. Bu dövrdə inkişaf səviyyəsinə çatmış qavrayışın, nitqin, hafizənin, diqqətin təsiri nəticəsində intensiv inkişaf edən təfəkkür digər psixi funksiyaların gələcək inkişafı üçün həlledici rol oynayır. Uşağın psixikasının ayrı-ayrı tərəflərinin və uşağın şüurunun inkişafı zamanı mürəkkəb dialektika ilə şərtləşmiş münasibətlər və əlaqələr yaranır. Bir yaş mərhələsindən digərinə keçən zaman funksiyalararası əlaqə və münasibətlər ətalətli olaraq qalmır, onların strukturları daha da mürəkkəbləşir və daha çox dəyişkən olurlar (1; 5).

Uşağın psixi inkişafının əsasını təşkil edən bir sıra analizatorların formalaşması dol dövrünə təsadüf edir və həyatın ilk anlarından onların inkişafını tamamlanmış hesab etmək düzgün olmazdı. Periferik şöbənin bütün analizatorları həyata gəlmə anına qədər formalaşmış kimi görünür. Bu da özü müdafiə və primitiv reaksiyalarla təcəssüm etdirir. Amma postnatal dövrlərdə baş beynin qabıq, qabıqaltı və gövdə şöbələrinin təsiri nəticəsində analizatorların sonrakı inkişafı baş verir. Məhz analizatorların qabıq şöbələrinin inkişafı sinir sisteminin analitik-sintetik fəaliyyətini təmin edir.

Uşağın psixi inkişaf prosesi və psixi fəaliyyətin ayrı-ayrı tərəflərinin əlaqəli şəkildə formalaşması hər bir yaş mərhələsində ətraf mühit ilə mürəkkəb qarşılıqlı münasibətlər sistemini yaradır. Eyni mühit amilləri müxtəlif yaş mərhələlərində uşağın ayrı-ayrı psixi proseslərinə fərqli təsir gücünə malik olur.

Məktəbəqədər yaş dövründə psixi proseslərlə yanaşı uşağın şəxsiyyət strukturunda da intensiv inkişafı müşahidə etmək olar. Onun hərəkət dairəsi koordinasiyalı, cəld, inamlı olaraq uşağın praktik fəaliyyətini genişləndirir. Uşaq bu yaş dövründə elementar özünəxidmət bacarıqlarına, müxtəlif çəkmə, yapma, kəsmə, yapışdırma kimi müxtəlif fəaliyyət növlərinə yiyələnir (5; 8).

Məktəbəqədər yaş dövründə nitq intensiv inkişafa malik olduğu üçün onun lüğət ehtiyatı əhəmiyyətli dərəcədə zənginləşir və altı yaşlı uşağın lüğəti 2500-3000 sözü əhatə etmiş olur (3; 4).

Məktəbəqədər yaş dövrünün ilkin mərhələlərində qeyri-ixtiyari hafizənin və qeyri-ixtiyari diqqətin intensiv inkişafını müşahidə etmək mümkündür. Uşaq asanlıqla şer, nağıl, hekayələri yadda saxlamaq bacarığına malik olur. Artıq 4-5 yaşlarında və oyun fəaliyyəti prosesində uşaqlarda ixtiyari aktiv diqqət və ixtiyari hafizənin ilkin elementləri qurulmuş olur (6).

Böyük məktəbəqədər yaş dövrlərində mürəkkəb psixi proseslərin formalaşma dövrü başlamış olur. Məktəbə gedən uşağın qarşısında yeni fəaliyyət növlərinə yiyələnmək kimi məsələlərin həlli durur. Əgər məktəbəqədər yaş dövründə uşağın məşğul olduğu fəaliyyət növləri oyun ilə müşayiət olunurdusa, məktəb dövründə onun qarşısına artıq konkret vəzifə qoyulur. O, ciddi nizama riayət etməli, müəllimin göstərişlərini yerinə yetirməlidir və s. Məktəb təliminə keçməklə uşaq oyun ilə təlim arasında dəqiq diferensasiya etməyə başlayır. Uşağın həyatında onların hər birinin dəqiq təyin olunmuş yeri, motivi və istiqaməti olmalıdır.

Zaman keçdikcə təlim uşağın fəaliyyətində əhəmiyyətli yer tutaraq son dərəcə mühüm amilə çevrilir və bu amil onun şəxsiyyətini inkişaf etdirir. Məktəb təlimi dövründə uşaqda ali psixi funksiyalar olan məntiqi təfəkkür, ixtiyarı diqqət, təfəkkürün daha mürəkkəb növləri intensiv inkişaf edərək daha da təkmilləşirlər. Əgər kiçik

məktəbəqədər yaşlı uşaqlarda mexaniki hafizənin inkişafı üstünlük təşkil edirdisə, məktəbəhazırlıq dövründə hafizə artıq ixtiyarı olur və uşaq qarşısına nəyi öyrənmək kimi məqsədi qoyur, təlim materialını yadda saxlayır. Hafizənin qorunma prosesində materialın ayrı-ayrı hissələri arasında müəyyən məntiqi əlaqələr qurulur (4; 5).

Məktəb yaş dövründə psixi proses olan diqqət də əhəmiyyətli dərəcədə dəyişir. Öz diqqətini ixtiyari olaraq aktiv şəkildə hər-hansı bir obyektə istiqamətləndirmək, üzərində saxlayıb və cəmləşdirmək bacarığını qazanır.

Məktəbəhazırlıq dövründən başlayaraq təfəkkürün inkişafında mühüm dəyişiklik baş verir. Uşaq daha şüurlu olaraq hadisənin səbəb və nəticə arasındakı əlaqəni anlamağa başlayır və nitq vasitəsi ilə şifahi şəkildə onu izah edir.

Məktəbəqədər yaşın sonu məktəb yaş dövrünün başlanğıcında uşağın emosional-iradi dairəsinin inkişafında mühüm dəyişikliklər baş verir. Məktəbəqədər yaşlı uşağın fəaliyyəti, onun ətrafdakılara münasibəti bilavasitə emosional xarakter daşıyır. Bu böyük məktəbəqədər yaşlı uşağın daxili nitqinın hələ tam formalaşmaması ilə izah olunur (3; 8).

4-6 yaşlı uşaq çox zaman öz fəaliyyətini nitq ilə müşayiət edir. Xüsusilə çətin situasiyalarda uşaq öz-özünə söylənməyə başlayır. Belə hallarda nitq uşaq fəaliyyətinin tənzimedicisi xüsusiyyətini qazanmış olur. Zaman keçdikcə xarici nitq sanki ixtisar olunaraq daxili bir vəziyyət almağa başlayır. Uşaq öz-özlüyündə yaranmış situasiyanı, bu və digər edəcəyi hərəkətləri, arzusunu, verəcəyi cavabları daxili nitq vasitəsi ilə dəyərləndirir. Bu da öz növbəsində daha mürəkkəb vasitəli davranışın, emosional-iradə dairənin və uşaq şəxsiyyətinin inkişafı ilə şərtləşmiş olur.




- psixi proseslərin inkişafı

-  psixikanın inkişafında dominant vəziyyətdə olan psixi proseslər

**Problemin elmi yeniliyi.** Psixi inkişaf proseslərinin hər tərəfli inkişafı uşağın öz fəaliyyətinə, davranışına, ətrafdakıların fəaliyyət və davranışına tənqidi yanaşmaq bacarığını formalaşdırır. Bu da uşaq şəxsiyyətini formalaşdıran əsas nüvə mərkəzi sayılır. Məhz psixi inkişaf proseslərinin belə mürəkkəb və ciddi qanun əsasında təkamülləşib və fəaliyyət göstərməsi onun normal iş prinsipləri ilə uyğun olduğunu göstərir.

Yuxarıda qeyd olunan normal hal zamanı psixi proseslərin inkişafının təhlili imkanları məhdud olan uşaqların inklüziv təhsilə cəlb olunma çətinliyini yaradır. Bu çətinliyi aradan qaldırılması üçün Qərbi Avropa və Amerika dövlətlərinin təcrübəsinə istinad edərək imkanları məhdud uşaqların həyatının ilk günlərindən başlayaraq psixi proseslərin inkişafını xarakterizə edən senzitiv dövrlərdən səmərəli istifadə olunması məsləhətdir. Yəni, həyatın ilk günlərindən mikro-pediatriya elminin irəli sürdüyü diaq-

nostika üsulları ilə yanaşı erkən yaş dövrünün diaqnostikası ilə məşğul olan korreksiyaedici müəllimlərin də bu problemə qoşulması zəruri və labüddür. Məhz psixo-pedaqoji təsir üsul və metodları vasitəsi ilə erkən yaş dövrlərinə xas olan uşaq beynin plastikliyindən və psixi proseslərin senzitivliliyində istifadə edərək uşağın məktəb yaş dövrünə qədər fizioloji olaraq bioloji qüsurdan qurtarmaq müvəffəq olmadığı halda ancaq II, III və s. ardıcıllığı gözlənilən qüsurlardan azad olması mümkün olur. Həyatın ilk günlərindən başlayaraq göstəriləcək psixo-pedaqoji təsir üsul və metodları psixi proseslərinın senzitivliliyi və beynin plastikliyi vasitəsi ilə uşağın emosiyalarını, intellektini, nitqini və şəxsiyyətinin inkişafını effektli kompensasiya ilə təmin etmək gücünə malikdir. Psixo-pedaqoji effektli təsir üsulları ilk növbədə körpə uşağın inkişafına şamil olunmalıdır (2; 8).

**Problemin praktik əhəmiyyəti:** İmkanları məhdud uşaqların inkişafında olan geriliyin həyatın ilk günlərindən aşkarlanması və onun psixo-pedaqoji üsul və metodlar vasitəsi ilə korreksiya edilməsi dövlət qarşısında duran ən mühüm vəzifələrdən sayıla bilər. Bu səbəbdən imkanları məhdud uşaqların erkən yaş dövrlərindən aşkarlanması və onları psixo-pedaqoji korreksiya təsir üsulu vasitəsi ilə inklüziv və ya normal cəmiyyətə cəlb olunması üçün dövlət tərəfindən vahid sistemin yaradılması zəruridir. Bu sistemdə həyatın ilk günlərindən aşkarlanan problemlərin aradan qaldırılması üçün tətbiq olunacaq psixo-pedaqoji korreksiya təsir üsulu vasitələri mərhələli surətdə keçirilməlidir. Yəni uşağın yaş inkişaf qanun və xüsusiyyətləri nəzərə alınmaqla tədbirlər planı hazırlanmalıdır (3; 8).

**Ədəbiyyat:**

1. Абрамова Г.С. Возрастная психология. М., 1997.
2. Выготский Л.С.Собрание сочинений. В 6-и т.5, М.: Педагогика, 1983.
3. Дети с ограниченными возможностями: проблемы и инновационные тенденции в обучении и воспитании. Хрестоматия по курсу «Коррекционная педагогика и специальная психология» /Сост. Н.Д.Соколова, Л.В.Калинникова. – М.: ООО «Аспект», 2005.
4. Иванова А.Е., Кравец О.Ю., Рыбкина И.А. и др. Коррекционно-развивающая работа с детьми раннего и младшего дошкольного возраста / Под ред. Н.В.Серебряковой. СПб.: КАРО, 2005.
5. Психическое развитие младших школьников / Под ред. В. В. Давыдова. М., 1990.
6. Специальная педагогика: Учеб. пособие для студ. высш. пед. учеб. заведений / Л.И.Аксенова, Б.А.Архипов, Л.И.Белякова и др.; Под ред. Н.М.Назаровой. М.: Издательский центр «Академия», 2004.
7. Специальная психология: Учеб. пособие для студ. высш. пед. учеб. заведений / В.И. Лубовский, Т.В.Розанова, Л.И.Солнцева и др.; Под ред. В.И.Лубовского. М.: Издательский центр «Академия», 2003.
8. Стребелева Е.А. Подходы к созданиюединой системы раннего выявления и коррекции откланений в развитии детей. М.: ЭКСМО - Пресс, 1998.
9. Шванцара Й.Диагностика психического развития. Прага,1978.

**E-mail**: minara62@list.ru
**Rəyçilər:** *ped.ü.fəls. dok., dos.* **T.S. Paşayev**
*ped.ü.fəls. dok., dos.* **N.Ş. Muradova**
**Redaksiyaya daxil olub:** 04.10.2018